

**Hacı Həsənov**
*Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, professor*

# Şimali Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının başlanması. Azərbaycan torpaqlarının bölüşdürülməsi (1801-1828-ci illər)

## *İşğallar ərəfəsində Azərbaycanın beynəlxalq və daxili vəziyyəti*

XVIII əsrin sonu-XIX yüzilliyin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi durumu kifayət qədər gərgin idi. Bir tərəfdən görkəmli Azərbaycan hərbi-siyasi xadimi Nadir şah Əfşarın qətlindən sonra bərqərar olmuş siyasi parçalanmalar ciddi və ağrılı proseslərə səbəb olmuşdur. Ayrı-ayrı xanlar və xanədanların ölkəni birləşdirmək cəhdləri ciddi nəticələr vermir, xanlıqlararası hərbi-siyasi qarşıdurmalar ölkənin və xalqın sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni həyatına ağır zərbələr vurur, ən əsası, real xarici təhdidlər önündə vətənin müdafiə imkanlarını xeyli zəiflədirdi.

Digər tərəfdən bu təbii sərvətlərlə son dərəcə zəngin, habelə strateji cəhətdən çox mühüm mövqedə yerləşən bu ölkəni ələ keçirmək uğrunda bir neçə hərbi-siyasi güc mərkəzi – Peterburq, Osmanlı və Qacar sarayları buraya yiyələnməyi özlərinin xarici siyasət xətlərinin prioritet məqsədlərindən sayırdılar. Bu baxımdan I Pyotrun vəsiyyətini reallaşdırmağa çalışan romanovlar xüsusi fəallıqları ilə seçilirdilər.

Rusiya imperatoru II Yekaterinanın (1762-1796) hakimiyyətinin sonuncu ilində P. Zubovun başçılığı altında rus ekspedisiya korpusunun Şimali Azərbaycana işğalçı müdaxiləsinin fiaskoya uğramasından bir neçə il sonra – yeni XIX əsrin ilk günlərindən Peterburq sarayı Cənubi Qafqaz siyasətini yenidən fəallaşdırdı. 1801-ci ilin yanvar və sentyabr aylarında Kartli-Kaxetiyanın romanovlar imperiyasına ilhaq edilməsi barədə müvafiq olaraq I Pavel və “ata qatili” I Aleksandrın (1801-1825) manifestləri verildi. Bu manifestə görə, Azərbaycanın Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının da Rusiya imperiyasının tərkibinə qatılmasını nəzərdə tutulurdu, lakin romanovlar sarayı Qacarlar soyunun Gəncə xanlığı taxtında əyləşən nümayəndəsi Cavad xan Ziyadoğlu faktorunu nəzərə almamışdılar. Bu sonuncu isə ata-babadan ona miras qalmış tarixi Azərbaycan torpaqlarını heç kəsə güzəştə getmək fikrində deyildi: istər Qafqazdakı Rusiya qoşunlarının baş komandanı Knorriqin, istərsə də

Qafqazdakı Rusiya qoşunlarının baş komandanı postunda onu əvəz edən, gürcü əsilli, ruslaşmış, qeyri-rus olan hər kəsə və hər şeyə nifrət edib şan-şöhrət qazanmaq üçün şeytanın özü ilə belə əlbirliyə hazır olan Pavel Sisianovun fəaliyyətə başlamasından dərhal sonra da – 1803-cü ildə Cavad xan Borçalı-Qazax-Şəmşəddilin onun qanuni mülkləri olduğunu bildirir, həmin ellərdə öz hakimiyyətini hər vəchlə qorumağa və bərkitməyə çalışırdı.

Gəncə xanlığının qoşunları bu manifestlərdən dərhal sonra da bu bölgələrə daxil olmuş, xanlıq bu əhalini himayə etmiş, öz hakimiyyətinin burada da varlığını dəfələrlə müxtəlif yollarla bəyan və sübut etmişdir.

Lakin qüvvələr son dərəcə qeyri-bərabər idi: bir tərəfdən dünyanın ərazicə ən böyük, ardı-arası kəsilməyən müharibələrdə böyük hərbi təcrübəyə malik orduya sahib imperiya və onun Şərqi Gürcüstandakı əlaltıları və bəzi satqın xırda feodal hakimləri, digər tərəfdən isə kiçik resurslara malik və qonşu Azərbaycan xanlıqları ilə gərgin münasibətləri çox vaxt düşmənçilik həddinə çatan (etiraf etmək lazımdır ki, hiyləgərlikdə ən usta fırıldaqçılara belə dərs verməyə qadir olan P.D.Sisianov hədəfə aldığı hər bir Azərbaycan xanlığını ustalıqla öz qonşularından təcrid etməyə, onların arasına nifaq və düşmənçilik toxumları səpmək işində böyük uğurlar əldə edə bilirdi) Gəncə xanlığı.

### *Car-Balakən və Gəncənin işğalı. 1804-1813-cü illər Rusiya-Qacar müharibəsi*

Sisianov hələ Gəncəyə bilavasitə müdaxiləyə başlayanadək Dağıstandan Azərbaycana gələ biləcək köməyin yollarını kəsmək üçün artıq 1803-cü ilin yazında Azərbaycanın Car-Balakən torpaqlarına iri hərbi qüvvələr yeridərək gərgin çarpışmalardan sonra camaatlara qalib gəlib onları 1803-cü il aprelin 12-də xüsusi “Andlı öhdəlik” imzalamağa vadar edə bilmişdi. Carlılar bu öhdəliklə çara sadiq qalacaqlarına, hər il ruslara 2 min pud xam ipək şəkildə təzminat ödəyəcəklərinə və camaat ağsaqqallarının övladlarından “amanatlar” - girovlar verəcəklərinə razı olmaq məcburiyyətində qalmışdılar. Elə həmin il qonşu İlisu sultanlığı da işğalçılara zorla tabe edilmişdi. Düzdür cəmi bir il sonra – 1804-cü ildə Car-Balakən camaatları çox güclü üsyan qaldırdı və yerli igidlər işğalçı qoşunları darmadağın edib onların başçısı general Qulyakovu öldürmüşdülər. Qüvvələrin qeyri-bərabərliyi, yeni Rusiya yürüşünün mümkün dəhşətli nəticələri Car-Balakən ağsaqqallarını işğalçılara boyun əyməyə məcbur etdi.

Car-Balakən camaatları və İlisu sultanlığının tabe edilməsindən sonra işğalçı Sisianov 1803-cü ilin noyabrın sonlarında Gəncəyə qarşı fəal hərəkətlərə keçdi, Quruqobuda Cavad xanı enib, onu qalaya çəkilməyə vadar etdi. Təxminən bir aylıq mühasirədən sonra işğalçılar 1804-cü il yanvarn 2-dən 3-ə keçən gecə şəhərə soxulub Gəncə qalasını tutdular, Cavad xan son nəfəsinədək qala divarları üzərində vuruşaraq

əldə silah, oğlu ilə birlikdə həlak oldu, şəhər dəhşətli dağıntılara və bir neçə gün görünməmiş talana, əhali olmazın təhqirlərinə məruz qaldı. Bu işğal Cavad xanın qohumları olan Qacarları yerindən tərpətməyə bilməzdi. Şimali Azərbaycan torpaqlarına da iddialı olan Fətəli şah Qacarın (1797-1834) qoşunları vəliəhd, naibüssəltənə Azərbaycan (Cənubi Azərbycan.-red.) hakimi Abbas Mirzənin qoşunları 1804-cü ilin iyununda Arazdan şimala keçərək Qacar sarayının Azərbaycan hüdudlarını tərk etmək tələblərinə məhəl qoymayan Rusiyaya qarşı müharibəyə başladı.

XIX yüzilliyin ilk onillikləri romanovlar Rusiyası üçün çox ağır bir dövr olsa da (bu işğalçı imperiya həmin dövrdə eyni zamanda Fransaya, İsveçə, Osmanlıya, Qacarlara qarşı müharibələr aparırdı) Sisianov Gəncə işğalından sonra bir-birinin ardınca Azərbaycan xanlıqlarını özünə boyun əyməyə vadar etməkdə idi. Sisianov Gəncə yaxınlığındakı Kürəkçay düşərgəsində 1805-ci ilin mayında 14-də (26-da) İbrahimxəlil xan Qarabağlı və mayın 21-də (iyunun 2-də) isə onun qohumu Səlim xan Şəkili, həmin ilin dekabrında Mustafa xan Şirvanlı ilə xanlıqlar üçün çox ağır şərtlərlə Rusiyaya tabe olmaq haqqında müqavilələr imzalamağa nail oldu. Bu müqavilələrdən Kürəkçayda İbrahimxəlil xanla Sisianov tərəfindən imzalanmış və Qarabağın Rusiya təbəəliyinə keçməsini rəsmiləşdirən müqavilə bir tərəfdən Qarabağ əhalisinin üzərinə çox ağır təəhhüdlər (xanlıq hər il Rusiya xəzinəsinə 8 min çervon təzminat ödəməli idi) qoyurdu. Qeyd edək ki, bu adları yuxarıda çəkilən müqavilələrin hamısı təxminən eyni məzmunlu idi: illik ağır təzminat, girovlar (“amanatlar”), müstəmləkəçi orqanlara tam tabelik, xarici siyasət yürütmək hüququnun yasaqlanması və s. Bu müqavilələr İbrahimxəlil xan, Səlim xan və Mustafa xan tərəfindən imzalanmışdır, belə “yağlı tikələri” ələ keçirmək münasibətilə romanovlar hökumətinin müxtəlif təltif və rütbələrlə mükafatlandırdığı qarabağlılar, şəkililər və şirvanlılar içərisində bir nəfər də digər millət nümayəndələri, o cümlədən də erməni yox idi.

1806-cı il fevralın 8-də Bakı qala divarları önündə qaniçən Sisianov layiq olduğu cəzasını aldı, bakılı Hüseynqulu xanın yaxın qohumu İbrahim tərəfindən güllələndi, başı kəsilib Fətəli şah Qacara ənam aparıldı və rus qoşunları bir müddət müdafiə taktikasına əl atmalı oldular. Lakin payızda yenə fəal hərbi əməliyyatlar başladı və ruslar bir-birinin ardınca Qərbi Xəzərsahili torpaqların (Dərbənd və s.) ələ keçirib, oktyabrın əvvəllərində Bakını işğal etdilər. İstər bu müharibənin, istərsə də 1806-cı ildə Osmanlı imperiyası ilə başlamış müharibənin gedişində işğalçılara qarşı gərgin mübarizə gedirdi. Şeyxəli xan Qubalı (1791-1806) ömrünün sonunadək (1821-ci ilədək) işğalçılarla vuruşdu, Hüseyn və Həsən xan qardaşlarının başçılıq etdikləri İrəvan xanlığı hələ ilk müharibənin gedişində rus işğalçılarını üç dəfə - 1804, 1808, 1812-ci illərdə məğlubiyyətə uğradıb geri çəkilməyə məcbur etdilər. Abbas Mirzənin Azərbaycanın təkcə cənubu yox, həm də, demək olar ki, bütün bölgələrindən

yığılmış, Azərbaycanın təmin etdiyi və Azərbaycan torpağında Azərbaycan uğrunda vuruşan qoşunları qeyri-bərabər mübarizədə böyük itkilərə məruz qaldı.

Daha böyük hərbi-iqtisadi üstünlüklərə malik olan romanovlar imperiyası həm Osmanlılara, həm də Qacarlara bu ilk müharibələrdə qalib gəldi. 16 may 1812-ci ildə Buxarestdə İstanbul hökuməti məğlubiyyətini etiraf edib sülh müqaviləsini imzaladı. 1812-ci ilin oktyabrında Qacar qoşunlarının Aslandüzdə ağır məğlubiyyəti,1813-cü il yanvarın 1-də Lənkəran qalasının rus qoşunları tərəfindən işğalı Qacarların bütün ümidlərini puça çıxardı. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində müqavilə imzalandı. Rusiya tərəfindən Qafqazdakı rus qoşunlarının baş komandanı Nikolay Rtişşevin, Qacarlar tərəfindən isə Fətəli şahın vəziri Əbülhəsən xanın imzaladıqları Gülüstan müqaviləsinə görə, Fətəli şah hökuməti İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Cənubi Dağıstan və Şimali Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalını tanımalı, Xəzər dənizində hərbi donanma saxlamaq hüququndan Rusiyanın xeyrinə imtina etməli və Rusiya tacirlərinə çox cüzi – 5 faizlik gömrük ödəməklə bütün Qacarlar imperiyasında sərbəst ticarət hüququ verməklə razılaşmalı oldu.

Ruslara müqavimət göstərmiş xanlıqlar işğaldan dərhal sonra, nisbətən “dinc” yolla ilhaq edilmiş xanlıqlar isə müxtəlif bəhanələrlə (1819-cu ildə Şəki, 1820-ci ildə Şirvan və 1822-ci ildə Qarabağ) ləğv edildilər. Onların yerində rus zabitlərindən təyin olunmuş komendantların idarə etdikləri əyalətlər yaradıldı. Qafqazdakı rus qoşunlarının baş komandanı tərəfindən təyin olunan əyalət komendantları keçmiş xanlardan ancaq ölüm hökmü vermək hüquqları olmamaları ilə fərqlənir, yerlərdə əsl vəhşiliklər, hüdudsuz qanunsuzluqlar törədirlər. Çox tezliklə mərkəzi və Qafqaz rus hakimiyyəti də bunu etiraf etməli oldu. Yeni işğal olunmuş müsəlman ölkəsində özünə xristian dayağı yaratmaq üçün çarizm bu istefaya çıxmış rus hərbiçilərini yerləşdirməyə, 1818-1819-cu illərdə Gəncəbasar-Borçalı bölgələrində 9-10 alman koloniyası yaratmağa çalışırdı. Komendantlar Ponomaryovun (1812), Tixonovskinin (1817) və baş komandan Yermolovun (1818) təlimatları da ölkədə müstəmləkə rejiminin möhkəmləndirilməsinə xidmət etməyə yönəldilmişdi. Çarizmin 1821-ci il güzəştli gömrük tarifi də buna istiqamətlənmişdi. Yeni müstəmləkəçi ağalar bu ölkənin siyasi, iqtisadi və mədəni-mənəvi həyatını tam nəzarət altına almağa çalışırdı. Yerli əhali arasından çıxanlardan ibarət olacaq və işğalçılara qulluq edəcək hərbi hissələr yaratmaq cəhdləri də gözlənilən nəticələri vermirdi. Yaradıldıqları təmtəraqla elan edilən “müsəlman” alaylarından ancaq birini saxlayıb rus ordusunun sırasına qatmaq mümkün oldu. Onu da çox tezliklə bu torpaqlardan uzaqlaşdırıb imperiyanın qərb ucqarına, işğal olunmuş Polşa torpaqlarına - Varşava general-qubernatorluğuna göndərdilər.

Müharibələrarası dövrdə yeni müstəmləkəçi hakimiyyət orqanlarının bütün səylərinə baxmayaraq nə xalqın işğalçılara qarşı mübarizəsinə son qoymaq, nə də

sabit fəaliyyət göstərən idarəçilik rejimini bərqərar etmək mümkün olmurdu. Hətta işğal dövründə bu və ya digər səbəblərdən işğalçılara qulluq göstərmiş, ya da sadəcə müqavimət göstərməmiş bəzi feodal hakimlərinin imtiyaz və ya vəzifələrinin məhdudlaşdırılması çox vaxt ciddi etirazlara səbəb olmuş (təkcə çox kəskin 1819-cu il Şəmşəddil həyəcanlarını, ardı-arası kəsilməyən kiçikmiqyaslı antirusiya aktlarını və s.-ni xatırlamaq kifayətdir), yeni müstəmləkədə etibarlı milli-dini-etnik dayaq yaratmaq cəhdləri faktiki olaraq fiaskoya uğramış (sayı o qədər də çox olmayan alman kolonistlərinin yerləşdirilməsi istisna olunarsa), çox böyük əhəmiyyəti nəinki yerli xüsusiyyətlərdən, ümumiyyətlə mülki idarəçilikdən bixəbər hərbçilərdən, ibarət müstəmləkə idarəçilik sistemi imperiyaya "uğurlardan" daha çox başağrıları gətirmişdir.

Digər tərəfdən isə Rusiyanın bu istiqamətdəki hərbi-siyasi uğurları ilə barışmaq istəməyən qonşu müsəlman imperiyaları, habelə onların Qərbi Avropadakı öz məqsədlərini hər şeydən uca tutan havadarları revanşıst planlarından heç bir vəchlə əl çəkmək istəmirdilər.

Bu havadarlar, habelə Osmanlı və Qacar imperiyaları aralarında mövcud olan bütün qarşıdurma, rəqabət və hətta açıq hərbi toqquşmalara (XIX əsrin 20-ci illərinin əvvəllərindəki osmanlı-qacar müharibəsinə) baxmayaraq bu qüvvələrin yenidən Rusiya ilə savaşa girəcəkləri ehtimalı günü-gündən güclənməkdə idi. Peterburq sarayının hərbi uğurları diplomatik gedişlərlə möhkəmləndirmək cəhdləri boşa çıxır, Tehrana göndərilən səfarətxana-missiyaları geriyə əliboş qayıdırdılar.

### *1826-1828-ci illər Rusiya-Qacar müharibəsi və nəticələri*

İşğalçılara qarşı xalq azadlıq mübarizəsi isə davam edirdi. 1826-cı ilin iyununda Abbas Mirzə Arazdan şimala keçib romanovlara qarşı yeni müharibəyə başlayan kimi bütün Şimali Azərbaycan müstəmləkəçilərə qarşı üsyana qalxdı. 1826-cı ilin yayında romanovlara qarşı ümummüsəlman üsyanının ilk günlərindən yerlərdəki rus qoşunları darmadağın edilərək qalalarda gizlənməyə məcbur oldular, keçmiş xanlıqların əraziləri işğalçılardan təmizləndilər, Gəncədə isə hətta şəhərdəki rus qarnizonu tam məhv edildi, Cavad xanın oğlu Uğurlu isə şəhərə daxil olub xan taxtına əyləşdi.

Belə bir əlverişli məqamda Abbas Mirzə komandanlığı ciddi taktiki səhvə yol verərək əsas hərbi qüvvələri 48 gün ərzində Şuşa qalasının azad edilməsində cəmləşdirməklə rus komandanlığına özünə gəlmək, qüvvələrini yenidən toparlamaq, yeni hərbi qüvvələri müharibə meydanına gətirmək imkanı verdi. Artıq 1826-cı ilin payızında Yermolov-Paskeviç komandanlığı (bunların arasındakı kəskin fikir ayrılıqlarına baxmayaraq bu dualist komandanlıq bir müddət davam etmişdir) Şəmkir və Gəncə yaxınlığında Abbas Mirzəni ağır məğlubiyyətə uğradaraq strateji təşəbbüsü

ələ aldı. Bu ağır məğlubiyyətlər 1826-cı ilin yayında bütün Cənubi Qafqazı bürümüş antirusiya ümummüsəlman üsyanının da tədricən tam iflasa uğramasına gətirib çıxardı.

1827-ci ilin iyununda Naxçıvan xanlığı rusların əlinə keçdi, Abbasabad və Sərdarabad qalalarının tutulmasından bir müddət sonra, demək olar ki, bir aylıq ağır müdafiə döyüşlərindən sonra Hüseyn və Həsən xan qardaşlarının uzun müddət başçılıq etdikləri İrəvan qalası 1827-ci il oktyabrın 1-də işğalçılar tərəfində qəsb olundu.

Bu zaman artıq rus qoşunları hərbi əməliyyatları Cənubi Azərbaycan ərazisinə keçirib bir-birinin ardınca oradakı əsas şəhərləri ələ keçirirdilər. Oktyabrın ortalarında rus qoşunları artıq Təbrizi ələ keçirmişdilər.

Fətəli şahın Tehran sarayı özü üçün real təhlükə hiss edərək nəyin bahasına olursa olsun sülh bağlamağa, Abbas Mirzə isə bundan boyun qaçırmağa çalışırdılar. Artıq noyabrda başlamış sülh danışıqları naibüssəltənənin inadkarlığı üzündən xeyli uzansa da, 1828-ci ilin əvvəllərində Rusiya qoşunlarının Ərdəbil və Urmiyanı tutmasından sonra, fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə Paskeviçlə müqavilə imzalayıb məğlubiyyəti etiraf etmək məcburiyyətində qaldı. Qüvvələrin qeyri-bərabərliyi, Qacarlar xanədanının dövlətçilik və hərbi təcrübəsinin kifayət qədər olmaması, Fətəli şah hökumətinin zəifliyi və s. kimi bir çox səbəbləri olan bu məğlubiyyət nəticəsində Qacar sarayı Gülüstan sülhünün bütün şərtlərinə əməl etməyi boynuna götürməyi, İrəvan və Naxçıvan iddialarından da imtina etməli, çox çətinliklə ödəyə biləcəyi 10 kurur – 20 milyon gümüş rus rublu məbləğində təzminatı ödəməyə razı oldu. Üstəlik Türkmənçay müqaviləsinin 15-ci maddəsi ilə müharibələrin gedişində təbəəsi olduqları dövlətə xəyanət edib ruslara casusluq və təxribatlarla qulluq göstərmiş ermənilərin Qacarlar ərazisindən köçürülmələri ilə razılaşmalı oldu. Beləcə 44 min erməni burada, iş-işdən keçəndən sonra başlamış yeni – 1828-1829-cu illər rus-osmanlı müharibəsinə yekun vurmuş 2 sentyabr 1829-cu il tarixli Ədirnə müqaviləsinə görə isə daha 91 min erməni Osmanlı torpaqlarından Şimali Azərbaycanın müxtəlif, ilk növbədə də İrəvan, Naxçıvan və Qarabağ bölgələrinə, habelə romanovlar imperiyasının Azərbaycanı iki yerə bölmüş yeni cənub sərhədləri boyunca olan torpaqlarına köçürüldülər və bu köçkünlər Azərbaycan torpaqlarında yerləşməklə kifayətlənməyib, sonralar Azərbaycana qarşı ərazi iddiaları sürmüş, separatçı-terrorist fəaliyyətlə məşğul olmuşdular.

Paskeviç müqavilənin imzalanmasından dərhal sonra onun imzalanmasında Rusiya tərəfinə dəstək olmuş Qacar məmurlarını mükafatlandırmaq üçün Peterburq hökumətindən xüsusi vəsait ayırmaq barəsində vəsadət qaldırarkən təqdim etdiyi utanc gətirən bu siyahının başında... Fətəli şah Qacar özü dururdu: - 5000 rubl!

Beləliklə, XIX əsrin ilk otuz ilində baş vermiş bu müharibələr nəticəsində Azərbaycan torpaqları bölüşdürüldü. Bununla eyni zamanda, bu müharibələr dövrü Azərbaycan xalqının işğalçılara qarşı azadlıq mübarizəsinin üzvi tərkib hissəsi idi. Bu mübarizə işğaldan sonra da daha geniş miqyasda davam etdirilmişdir.